# AZƏRBAYCAN RESPUBLİKASININ
# ENERGETİKA NAZİRLİYİ

# Ə M R

№ F-6

Bakı şəhəri "21" yanvar 2020 il

***Gənclər arasında könüllülük fəaliyyətinin təşviqinə dair***

Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2019-cu il tarixli Sərəncamını, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. "Gənc Energetiklər" könüllülük proqramının icrasına başlanılsın.
2. Könüllülük fəaliyyətinə dair elektron müraciət forması təsdiq edilsin (Əlavə 1).
3. Dövlət qulluğu və kadrlar şöbəsinə tapşırılsın ki:

3.1. könüllülük fəaliyyətinin əlaqələndirilməsini həyata keçirsin;

3.2. nazirliyin struktur bölmələrinin könüllü xidmətə ehtiyac meyarlarının müəyyən edilməsi üçün sorğu aparılmasını təmin etsin;

3.3. müvafiq struktur bölmələrin rəhbərləri ilə birgə könüllülük fəaliyyətinə qoşulmaq üçün müraciət edən gənclərin seçimini həyata keçirsin;

3.4. şöbənin bir nəfər əməkdaşını könüllülər üzrə əlaqələndirici təyin etsin;

3.5. müvafiq proqramın davamlılığını təmin etsin.

4. Mətbuat sektoru könüllülük fəaliyyətinə dair elanın nazirliyin rəsmi saytında yerləşdirilməsini təmin etsin.
5. Müvafiq struktur bölmələri könüllülük fəaliyyətinin icrasını təmin etsinlər.
6. Maliyyə və təminat şöbəsi bu əmrdən irəli gələn texniki məsələlərin yerinə yetirilməsini təmin etsin.
7. Ümumi şöbə bu əmrin surətinin nazirliyin bütün struktur bölmələrinə göndərilməsini təmin etsin.
8. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Nazir** **Pərviz Şahbazov**